# Enerji təhlükəsizliyi bütün ölkələrin strateji məsələsidir

**Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) oktyabrın 1-də reallaşmış açılış mərasimində çıxış edən dövlətimizin başçısı adı çəkilən enerji infrastrukturu layihəsinin Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayacağını bildirib. Enerji təhlükəsizliyinin hər bir ölkənin milli təhlükəsizliyinin bir hissəsi olduğunu diqqətə çatdıran ölkə rəhbəri bunu hazırda dünyada mövcud cari geosiyasi vəziyyətlə əlaqələndirib.**




Qeyd edək ki, ümumi uzunluğu 182 kilometr olan qaz interkonnektoru Bolqarıstanın və Yunanıstanın qaz nəqli şəbəkələrini birləşdirib. Layihə 2011-ci ildə Bolqarıstanda qeydiyyatdan keçən Bolqarıstan–Yunanıstan “ICGB AD” investisiya şirkəti və Yunanıstanın “IGI Poseidon” qurumunun səhmdarları ilə birlikdə reallaşdırılıb.

Xatırladaq ki, IGB-nin Azərbaycanın “Şahdəniz-2” yatağından hasil edilən təbii qazın Bolqarıstana çatdıracağı planlaşdırılıb. Bu məqsədlə adı çəkilən ölkənin “Bulgargaz EAD” dövlət şirkəti ilə “Şahdəniz” konsorsiumu arasında müqavilə imzalanıb. Boru xəttinin illik ötürmə gücünün 3 milyard kubmetr təşkil edəcəyi nəzərdə tutulub. Perspektivdə isə bu göstəricinin ildə 5 milyard kubmetrədək artırılması proqnozlaşdırılıb.

Onu da vurğulayaq ki, Azərbaycan qazının Avropaya nəqli 2020-ci ilin sonunda Cənub Qaz Dəhlizinin (CQD) sonuncu seqmentinin – TAP-ın işə düşməsi ilə başlayıb.

Hazırda Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya Azərbaycan qazının alıcılarıdır. Göründüyü kimi, yeni çağırışlar qarşısında Azərbaycan qazına tələbat getdikcə artır.

Şübhəsiz ki, bu qaz təchizatında Avropanın enerji xəritəsini dəyişmiş CQD mühüm rol oynayır. Bu nəhəng infrastruktur qitə üzrə ən böyük layihələrdən biridir. Azərbaycan CQD ideyasının, belə demək mümkündürsə, müəllifi bu layihəni başlayan tərəfdir.

Yeri gəlmişkən, dövlətimizin başçısının çıxışında vurğulandığı kimi, CQD qazı istehlakçılara yeni marşrutla, o cümlədən, yeni mənbədən nəql edir. İndiyədək yeganə mənbə isə Xəzərin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” qaz yatağıdır. Lakin Azərbaycanın təbii qaz potensialı güclüdür. Bunu ölkəmizin bir neçə digər qaz yatağında bu yaxınlarda hasilat prosesinə başlanacağı da göstərir.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində cari ilin iyul ayında Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenin respublikamıza səfəri zamanı Avropa Komissiyası ilə Anlaşma Memorandumu imzalaması da önəmli rola malikdir. Ümumiyyətlə, qeyd edilən Anlaşma Memorandumu çox əhatəli sənəddir. Belə ki, bu memoranduma əsasən, 2027-ci ilə qədər Azərbaycan təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırır və bunu reallaşdırmaq üçün tam potensial mövcuddur.

**(ardı 3-cü səhifədə)**

# Enerji təhlükəsizliyi bütün ölkələrin strateji məsələsidir

**(əvvəli 1-ci səhifədə)**

Burada onu vurğulayaq ki, IGB-nin açılış mərasimində çıxış edən dövlətimizin başçısının sözlərinə görə, Azərbaycan TANAP-ın 16 milyard kubmetrdən 32 milyard kubmetrə, TAP-ın isə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirilməsi ilə bağlı tərəfdaşlarla artıq məsləhətləşmələr aparır. Çünki bu layihə reallaşdırılmadan əlavə təchizatı gerçəkləşdirmək çətindir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun bildirdiyinə görə, istər CQD, istər də IGB-nin reallaşması məhz Azərbaycan Prezidentinin siyasi iradəsi nəticəsində mümkün olub.

İGB layihəsinin uğurla həyata keçirilməsi CQD ərsəyə gələndən sonra daha da aktuallaşıb. Bu, Azərbaycan qazının daxili şəbəkə vasitəsi ilə Avropanın enerji diversifikasiyasına daha çox ehtiyac olduğu bölgələrinə çıxması deməkdir. Bununla da ölkəmiz, həmçinin Mərkəzi və Şərqi Avropa ölkələrinin enerji təhlükəsizliyinin formalaşmasına xüsusi töhfə vermis olacaq.

V.Bayramov açıqlamasının sonunda rəqəmlərə istinad edərək vurğulayıb ki, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin formalaşmasına töhfəsi genişlənməkdədir. Belə ki, 2021-ci ildə Azərbaycan, bütövlükdə, 19 milyard kubmetr mavi qaz ixrac edib. Bu müddətdə Avropaya 8,2 milyard kubmetr qaz göndərilib. Cari ilin ilk 8 ayında isə Avropaya qaz ixracımız 50 faizdən çox artıb və illik nəqlin 11,5 milyard kubmetrə çatacağı gözlənilir.




Bütövlükdə isə Azərbaycan bu il 22 milyard kubmetr qaz ixrac etmək niyyətindədir.

Beləliklə, uzun illərdir ki, ölkəmiz Avropanın enerji təhlükəsizliyində neft təchizatçısı olaraq önəmli rol oynyır. Hazırda isə etibarlı qaz təchizatçısına çevrilir. Bütün bunlarla bərabər, Azərbaycan Avropa üçün, eyni zamanda, elektrik enerjisinin təchizatına başlamaq məqsədilə müəyyən layihələr üzərində işləyir, avropalı tərəfdaşlarla birgə bu enerjinin Avropa qitəsinə çatdırılması barədə müzakirələr aparır. Yeri gəlmişkən, xatırladaq ki, külək enerjisi sahəsində təkcə Xəzər dənizində təsdiq edilən potensialın həcmi 157 qeqavatdır.

Sonda bir məqamı da diqqətə çatdırmaq istərdik. Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) Azərbaycanda təsdiq olunan neft və qaz ehtiyatları üzrə qiymətləndirməsini açıqlayıb. Bu barədə OPEC-in illik statistik bülletenində məlumatlar yer alıb. Bülletendə cari ilin əvvəlinə Azərbaycanın təsdiqlənən neft ehtiyatları 7 milyard barel (təqribən, 1 milyard ton) təşkil edib ki, bu da 2020-ci ilin göstəricisinə bərabərdir. Respublikamızın təsdiqlənən qaz ehtiyatları isə 1,917 trilyon kubmetr təşkil edib.

"Fitch Ratings" və BP-nin birgə apardığı hesablamaların nəticəsində isə Azərbaycanın təbii qaz ehtiyatlarının ölkəyə hələ 120 ilə yaxın bəs edəcəyi məlum olub. "Fitch Ratings" beynəlxalq agentliyi bildirir ki, bu göstəriciyə görə, Azərbaycan dünyanın lider ölkələrindən biridir və yalnız Qətərdən geri qalır.

**Vaqif BAYRAMOV, "Xalq qəzeti"**